UOT 008

**Adil Fazil oğlu Sadıxov**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**e-mail: ilgarsu@mail. ru**

# QƏDİM ÇİN MƏDƏNİYYƏTİ HAQQINDA

**Xülasə:** Məqalədə deyildiyi kimi, Çin qədim tarixi, mədəniyyəti, fəlsəfəsi olan bir ölkədir. Çində riyaziyyat, astronomiya, ulduz kataloqu, təbabət, musiqi alətləri və s. böyük inkişaf yolu keçmişdir. Qədim çinlilər çoxlu texniki kəşflər etmişlər. Məşhur "Böyük Çin səddi" də ən böyük arxitektura nümunəsidir. Çin musiqisi dünyanın ən qədim musiqi mədəniyyətlərindən biridir.

**Açar sözlər:** mədəniyyət, qədim, musiqi, fəlsəfə, tarix, mifologiya, yaradıcılıq

Bildiyimiz kimi, Şərq dünya sivilizasiyasının mərkəzidir. Quldarlıq dövründə Şərq xalqlarının yaratdıqları mədəniyyət sonralar Qərb xalqları və digər xalqlar tərəfindən istifadə edilmişdir. Sinifli cəmiyyət, dövlət ilk dəfə Şərqdə meydana çıxmışdır.

Feodalizm dövründə Şərq xalqlarının – hindlilərin, çinlilərin, farsların, ərəb və türklərin bəşər mədəniyyətinə verdikləri dəyərlər əvəzsizdir. Bu xalqların müxtəlif elm sahələri - ədəbiyyat, musiqi, riyaziyyat, tibb, astronomiya, fəlsəfə və s. üçün yazdıqları əsərlər indiyə qədər öz əhəmiyyətini itirməyib.

Bütün Qərb filosoflarının, xüsusilə, C. Bruno, Viko, Herder, Sen-Simon, Fixte, Şellinq və başqalarının öz əsərlərində Şərqə münasibətlərinin ana xətti budur ki, Şərq dünya sivilizasiyasının başlanğıcıdır.

Hələ Midiyada Astiaqın dövründə e.ə. VII əsrdə meydana gəlmiş Zərdüştlük mədəniyyəti rəsmi dinə çevrilir. Öz dövrünün dini, mifoloji, elmi, fəlsəfi, əxlaqi və bədii görüşlərinin toplusu olan "Avesta" leksikonunda "tərbiyə", "gözəllik" və "xeyir" anlayışları semantik və etimoloji baxımdan bir-biri ilə sıx bağlıdır.

Qədim Hindistanın dini, fəlsəfi, etik və estetik görüşləri Upanişadlarda öz əksini tapıb. Upanişad müəllifləri incəsənəti ötəri həzz yaradan maddi obyektlər və hadisələr sırasına aid edirlər. Upanişaddakı tərbiyə və simvolika "Mahabharata" və "Ramayana" kimi epik Hind poemalarının obrazlılığına müəyyən təsir göstərdi.

Çində mədəni fikir e.ə. VI-III əsr filosoflarına aiddir. Çin xalqlarının musiqi, poeziya, dekorativ-tətbiqi sənətin inkişafı ilə zənginləşən bədii mədəniyyəti etik, estetik görüşlərin yetişməsinə səbəb oldu ki, bu da öz əksini Konfutsi, Lao-tsı, Çjuan-tsı, Mo-tsı və digərlərinin əsərlərində tapdı. Etik baxışlar

bu və ya digər şəkildə qədim Çinin bütün fəlsəfi məktəblərində - konfutsiçilik, daosizm, moizm və legizm tərəfindən inkişaf etdirilirdi. Lakin konfutsiçilik və daosizm görüşləri Çin mədəniyyətinin irəli getməsində daha mühüm rol oynamışdır.

Beləliklə, qədim xalqlardan dövrümüzədək gəlib çatan maddi və mənəvi mədəniyyət abidələri, o cümlədən, incəsənət nümunələri, yazılı mənbələr və ayrı-ayrı mətnlər mövcuddur ki, bunlar vasitəsilə Qədim Şərq xalqlarının mədəniyyətini müəyyən dərəcədə öyrənmək olar. Əlimizdə olan materiallar fraqmentar xarakter daşısa da, Qədim Şərq xalqlarının zəngin mədəniyyəti danılmazdır.

Qədim Şərq xalqlarının mədəniyyət nümunələrində Çin mədəniyyətinin xüsusi yeri vardır.

Çin qədim tarixi, mədəniyyəti, fəlsəfəsi olan bir ölkədir. Hələ bizim eradan əvvəl Şan-in dövlətində (bizim eradan əvvəl XVIII-VII əsrlərdə) təsərrüfatda quldarlıq münasibətləri hökm sürürdü. Döyüşlərdə əsir götürülənlərin qul əməyindən, əsasən, maldarlıqda, müəyyən qədər əkinçilikdə, həmçinin ev təsərrüfatında və tikintidə istifadə olunurdu. Həmin dövrdə əkinçilikdə qan qohumluğuna əsaslanan icmalar (patronomiya) mühüm rol oynayırdı. Şan-İn dövründə və onun yerinə gələn Çjou sülaləsi dövründə dini-mifoloji dünyagörüşü hökm sürürdü. Artıq qeyd etdiyimiz kimi, Çin miflərinin fərqləndirici cəhətlərindən biri oradakı allahların və ruhların xarakteri idi. Ona görə də qədim Çin allahları heyvanlar, quşlar, balıqlar ilə çox oxşar idi və əksəriyyəti yarımheyvan və yarıminsan şəklində təsvir olunurdu. Lakin burada bunu deməklə kifayətlənirik ki, panteonda əsas yeri Şan- Di tuturdu. Bütün allahlar və ruhlar ona tabe idi. Onun iradəsi qarşısında külək, yağış, bulud ruhları aciz hesab olunurdular. Lakin Şan-di təkcə baş allah olmayıb, qədim çinlilərin təsəvvürünə görə, o həm də onların əcdadları və hamiləri idi. Miflərə görə, İn tayfasının əcdadı Şan-di olmuşdur. Bir sıra mifoloji obrazların sonrakı fəlsəfi traktatlarda mühüm yer tutması heç də təsadüfi deyildir. Bizim eradan əvvəl V-III əsrlərdə yaşayan filosoflar tez-tez miflərə müraciət edirdilər. Onlar həqiqi idarəçilik və insanın düzgün davranış normaları haqqında öz konsepsiyalarını yaratmaq üçün miflərdən istifadə edirdilər.

Bununla yanaşı, konfutsiçilər miflərin tarixiləşməsini həyata keçirirlər. Buraya qədim miflərin süjet və obrazlarını mifdən azad edib, tarixi don geydirmək də daxil idi.

Qədim "Çin mifləri" kitabının müəllifi Yuan Ke yazırdı ki, konfutsiçilərin əsas məqsədi bütün mifoloji personajların hərəkətlərini insaniləşdirmək idi ki, bu da miflərin tarixiləşməsi kimi başa düşülməlidir. Mifoloji əfsanələri öz təlimlərinə uyğunlaşdırmağa cəhd edən konfutsiçilər ruhların insanlara çevrilməsinə çox səylə girişmiş, miflərin və əfsanələrin rasional izahı üçün də az iş görməmişlər.

Çin mədəniyyətinin tarixi mifologiyasında dünyanın, təbiətin yaranmasının öz izahı, öz şərhi mövcud olmuşdur. Ən qədim dövrlərdə nə səmanın, nə də yerin olmadığı dövrlərdə kainat formasız və qaranlıq xaos kimi təsəvvür edilirdi. Bu mifə görə, həmin formasız qaranlıqda iki ruh (yaxud allah) – İn və Yan yarandı və onlar dünyanı qaydaya salmağa başladılar. Sonralar bu ruhlar bir-birindən ayrıldılar. Yan ruhu səmanı, İn ruhu isə yeri idarə etməyə başladı. Belə hesab edilir ki, onlar qaranlığın kobud hissəciklərindən heyvanları, quşları, balıqları və digər canlıları, yüngül hissəciklərindən isə insanları yaratmışlar.

"Şu Tsin" kitabının "Xun fan" ("Böyük plan") fəslində deyilir: "Birinci başlanğıc – su, ikinci – od, üçüncü – ağac, dördüncü – metal və beşinci – torpaqdır. (Daimi təbiət) suyaş olub, üzü aşağı axmalıdır; od yanmalı və yuxarı yüksəlməldir; ağac əyilməli və düzəlməlidir; metal xarici təsirə tabe olmalı və dəyişilməlidir. (Təbiət) torpaq o vaxt özünü təzahür etdirir ki, əkilir və məhsul verir".

Bizim eradan əvvəl VI-III əsrlərdə Qədim Çinin mədəniyyətində və ideya həyatında keyfiyyətcə yeni hadisələr baş verdi.

Qeyd etməliyik ki, "Qədim Çin mədəniyyəti əski dövrlərdə yazılı mənbələrlə zəngin olmuşdur. Hələ bizim eradan əvvəl XV əsrdə Çində heroqlif yazı sistemi mövcud olmuşdur. Burada 2 mindən çox heroqlifdən istifadə olunmuşdur. Çinlilər uzun əsrlər boyu ipək üzərində natural rənglərlə yazmışlar. Bizim eraya yaxın onlar mürəkkəb və kağızı kəşf etdilər. Bu dövrdə heroqliflərin sayı üç mini ötdü. Bizim eranın ikinci əsrində 10 minə, III əsrdə isə on səkkiz minə çatdı. Rəssamlıq, sənətkarlıq və s. geniş inkişaf etmişdir. İki-üç mərtəbəli evlərin tikilişi, büllur qablar istehsalı və s. bu qəbildəndir. Məbədlərin və qəsrlərin tikilişi davam etdirilirdi. Bizim eradan əvvəl III əsrdə Çində 700-dən çox imperator sarayı tikilmişdir".

Riyaziyyat, astronomiya, ulduz kataloqu, təbabət, musiqi alətləri və s. böyük inkişaf yolu keçmişdir. Qədim çinlilər çoxlu texniki kəşflər etmişlər. Maqnit cihazı, kompasın ilk nümunəsi, su dəyirmanı, maşın-nasos çinlilərin adı ilə bağlıdır. Ən böyük tarixçi, çoxcildli "Tarixi qeydləri"in müəllifi də çinli Sıma Syandır. Məşhur "Böyük Çin səddi" də ən böyük arxitektura nümunəsidir.

Göründüyü kimi, Çin dövləti ən qədim tarixə və ən qədim sivilizasiyaya malik ölkələrdən biridir. Bu ölkə çox qədim mədəniyyətə və zəngin təbii sərvətlərə malikdir.

"Dünyada ilk dəfə kağız pullar orta əsrlərdə Çində meydana gələrək, bunlar da "uçan pullar" adını daşımışdır. Çin əsginasları (yəni, kağız pullar) ilə tanış olmuş monqollar Azərbaycanda olarkən 1294-cü ildə Təbrizdə "çağ" adlı kağız əsginaslar kəsməyə cəhd etmiş, lakin özünü doğrultmadığına görə bu pullar ləğv olunmuşdur".

Çin özünün mövcudiyyətinin 8 min il tarixinin 4 min ilində ancaq yazı mədəniyyətinə malikdir, Çin yazısı – heroqlif sisteminə aiddir. E.ə. II minilliyin ortalarında yaranmış yazı işarələrinin ümumi sayı təqribən 50 mindir.

Çin musiqisi dünyanın ən qədim musiqi mədəniyyətlərindən biridir. "Şitszin nəğmələr kitabı" məcmuəsi e.ə. XI-VI əsrlərdə yazılmışdır. Bu mənada sənətşünas Nərgiz Quliyeva bildirir ki, "Uzaq Şərq ölkələri özündə folklor və klassik musiqini birləşdirən zəngin musiqi mədəniyyətinə malikdir. Erkən dövrlərdə səsin heroqlif sistemi özündə Uzaq Şərqin başlıca musiqi nümunələrini daşıyır desək, heç də yanılmarıq. Eranın əvvəlində Çində təşəkkül tapan yuefu mahnıları, Koreyada VII əsrdə yaranan "Suçjeçxon", Yaponiyada isə IX əsrdəki "Etenraku" musiqi nümunələri bu qəbildəndir".

Qədim Çin musiqisi məxsusi ayin hərəkətləri ilə, bayır və çöl işlərinin sona çatması münasibəti ilə, qurbanlar kəsməklə və ya el bayramları ilə sıx bağlıydı.

Çində musiqi mədəniyyətinin qədimliyini arxeoloji tapıntılar da sübuta yetirir. XX əsrin birinci yarısında Anyan (Çin, Xenan əyaləti) həndəvərində aparılan arxeoloji qazıntılar musiqi alətlərinin ən qədim nümunələrini aşkara çıxardı. Hansıları ki, onlar sonrakı dövrlərdə Çin və Uzaq Şərq ölkələrində mərasim və saray musiqisinin ən vacib elementlərinə çevrildilər. Buna ən sadə zərb alətləri aid oluna bilər: sii (tək daş lövhə) və çjun (tunc və ya dəmir zınqrov); nəfəsli alət sayılan syuanı da bu sıradandır.

Mənəvi baxımdan Çin sivilizasiyasında, mədəniyyətində, musiqisində konfutsizm və daosizm bir-birini müsbət şəkildə tamamlayır, yeri gələndə bir-birinin çatışmazlığını da üzə vururdu. Qədim Çində musiqinin fəlsəfi mahiyyəti ilə bərabər, musiqi nəzəriyyəsi ilə bağlı yaranan problemlərə də müntəzəm diqqət yetirilirdi.

Böyük alim, nəzəriyyəçi, filosof Konfutsi belə deyirdi: "Ağıl odaların oxumasıyla yaranır, xarakter – davranışın qaydalarıyla tərbiyə olunur, son təhsili isə musiqi aşılayır". Məlumata görə, şəxsən Konfutsi b.e.ə. 484-cü ildə məşhur "Şiszin"i ("Mahnıların Kitabı"nı) yazmış və oraya qədim çinlilərin 305-dən artıq nəğməsini daxil edibmiş.

Qeyd etməliyik ki, hazırda Çində əhalinin 94 faizini xansilər təşkil edir. Çinlilər özlərini han (xan) adlandırırlar. Xan sülaləsi dövrü eradan əvvəl III əsr, eramızın III əsrini əhatə edir. 6-9-cu əsrlərdə Çində Tan sülaləsi dövrü başlanmış, ölkənin şimalında türk tayfa ittifaqları yaranmışdır. Burada çinlilərdən başqa müxtəlif dil qruplarına və ailəsinə mənsub 50-dən çox xalq yaşayır. Çinin şimal-qərbində türk dilləri qrupuna daxil olan xalqlar: uyğurlar, qazaxlar, qırğızlar, salarlar və başqaları yaşayır. Dövlət dili çin dilidir. Çin ərazisinə Tayvan və Hanyan kimi iki ən böyük ada olmaqla, 3200-dən çox ada daxildir.

Qədim Çin mədəniyyətinin, elminin inkişafında istedadlı Çin filosoflarının rolu (yuxarıda göstərildiyi kimi) böyük olmuşdur. Bu məsələdə konfutsilik məktəbinin xüsusi əməyi vardır.

Məktəbin banisi Kun Fu-tszı (Konfutsi) b.e.ə. 551-479-cu illərdə yaşayıb yaratmışdır. Bu məktəb, əsasən, etik-siyasi istiqamətdə inkişaf etmişdir. Bu fəlsəfi-etik fikirlər, eləcə də Konfutsinin həyatı və təlimi haqqındakı materiallar onun şagirdləri tərəfindən "Lun-yu" ("Söhbətlər və kəlamlar") kitabında toplanmışdır.

Konfutsi təliminin əsası tərbiyə idi. "İnsanlar təbiətlərinə görə bir-birinə yaxındırlar, lakin tərbiyə zamanı onlar bir-birindən fərqlənirlər. Yenini dərk etmək üçün hökmən köhnəni öyrənmək lazımdır".

Konfutsilik təliminin əsas anlayışları "qarşılıqlı məhəbbət", "qızıl mərkəz" və "insana sevgi"dir (jen). Bunlar birlikdə "doğru yol"u (dao) təşkil edirlər. Bu yola öz-özü ilə, başqaları və dünya ilə razılaşmada olan hər bir kəs əməl etməlidir. Bu, xoşbəxtlik deməkdir. İnsana məhəbbətin, humanizmin əsası valideynlərə ehtiram və böyük qardaşlara hörmətdir. Bir sözlə, hər bir şəxs insanları sevməlidir. İnsanları sevən adam heç vaxt pis əməl etməz. Bu təlimin ikinci anlayışı "qızıl mərkəz" (çjun-yun) anlayışıdır. Bu insanların öz davranışında səbirsizlik və ehtiyat arasında orta mövqe tapmasıdır.

Konfutsi məktəbinin davamçıları Men-tszı (b.e.ə. 372-289), Syun-tszı (b.e.ə. 298-238) və başqaları idi. Syun-tszının da təlimində mərkəzi xətt cəmiyyət və insan problemi idi.

Qədim Çin mədəniyyətinin fəlsəfəsində ikinci özünəməxsus yerlərdən birini tutan fəlsəfi təlim daosizmdir. Bu məktəbin banisi Konfutsi ilə bir dövrdə yaşamış Lao-tsı (b.e.ə. VI-V əsr) hesab edilir. Daosizmin əsas kitabı "Dao de sin" ("Dao və de haqqında kitab") adlanır.

Konfutsi təliminin tam əksinə olaraq bu məktəbin nümayəndələri iddia edirlər ki, insanların və təbiətin həyatı "səmanın idarəsi" ilə deyil, dao tərəfindən müəyyən edilmiş təbii yolla inkişaf edir.

Daosizm məktəbinin digər nümayəndəsi Lao-Tsının davamçısı Yan Çjudur. Deyilənə görə o, qüvvənin mövcudluğunu rədd edirdi. O, iddia edirdi ki, əşyalar hamısı öz qanunları əsasında idarə olunurlar və daima dəyişməkdədirlər. Yan Çjuya görə insan başqa məxluqatdan yalnız öz ağlı ilə fərqlənir. İnsanın ruhu onun bədənindən ayrı mövcud ola bilməz. Ölümdən sonra ruh da yoxa çıxır.

Yuxarıda deyilənlərdən göründüyü kimi, Qədim Çin mədəniyyətinin tarixi olduqca zəngin və rəngarəngdir. Uzaq Şərqin cəmi ölkələrindən ən qədimi sayılan Çin, öz mədəniyyəti ilə qonşu ölkələrə böyük təsir göstərirdi. Çinin mədəni tarixi təxminən dörd yarım minillikdən daha qədimdir.

**Ədəbiyyat siyahısı:**

1. Şükürov, A. Qədim Şərq xalqlarının mifologiyası. - Bakı: - II kitab. - 1995.
2. Nicat, Ə. Tarixin sübh çağı. -Bakı: - 1992.
3. Səfiyev, Əfqan-Cövhər. Çin təəssüratları. -Bakı: - //Elm və təhsil. - 2011.
4. Quliyeva, N. Çin musiqi mədəniyyəti tarixindən. -//Qobustan , - 2019
5. Культурология. Теория и история культуры. - М. : - 1996

**Адиль Фазиль оглы Садыхов** **О ДРЕВНЕЙ КИТАЙСКОЙ КУЛЬТУРЕ**

**Резюме:** В статье говорится, что Китай страна с древней историей, культурой и философией. В Китае были очень развиты математика, астрономия, медицина, был создан звездный каталог, первые музыкальные инструменты и т. д. Древние китайцы создали много технических изобретений. Известная «Великая Китайская стена» является очень большим архитектурным примером. Китайская музыка является одной из древнейших музыкальных культур мира.

**Ключевые слова:** культура, древний, музыка, философия, история, мифология, творчество.

**Adil Fazil oghlu Sadikhov** **ABOUT ANCIENT CHINESE CULTURE**

**Summary:** The article tells that China is a country with ancient history, culture and philosophy. Mathematics, astronomy, star catalogue, medicine, musical instruments, etc. were developed in China so much. The ancient Chinese created many technical inventions. The famous "Great Wall of China" is a striking architectural example. Chinese music is one of the ancient musical cultures in the world.

**Key words:** culture, ancient, music, philosophy, history, mythology, creativity

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**